# Qarabağ Azərbaycandır!

AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 12 (1459), 3 - 9 noyabr 2020-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha bir neçə kəndini işğaldan azad edib

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.

## "Qarabağ" klubu bəyanat yaydı

"Qarabağ" futbol klubu Gəncə, Bərdə və Tərtər şəhərlərindəki erməni silahlı qüvvələri tərəfindən günahsız mülki vətəndaşların dəfələrlə bombalanması və öldürülməsini kəskin şəkildə qınayıb.

Klubun bununla bağlı yaydığı bəyanatda deyilir:

"Bildirmək istərdik ki, "Qarabağ" Futbol Klubu hər zaman idman prinsiplərinə, ali futbol qurumu olan UEFA-nın Ədalətli Oyun (Fair Play), İrqçiliyə yox (No Racism) və digər bütün qaydalarına riayət edir, eyni zamanda, Azərbaycanın ərazi haqqı və bütövlüyünü dəstəkləməkdə möhkəmdir. İşimiz futboldur və tezliklə oyunlarımızı Qarabağdakı öz əzəli stadionumuzda oynaya biləcəyimizə inamımız sonsuzdur. Biz düşünürük ki, idmanın şahı sayılan futbol öz yurdlarından didərgin düşmüş bir milyona yaxın qaçqının illər boyu çəkdiyi əziyyətini beynəlxalq səviyyədə məlumatlandırmaq üçün ən yaxşı dinc vasitədir. Prezidentimiz cənab İlham Əliyev tərəfindən dəfələrlə bildirildiyi kimi, milliyyətindən asılı olmayaraq mülki şəxslərə edilən hər hansı hücumu pisləyir, Gəncə, Bərdə və Tərtər şəhərlərindəki erməni silahlı qüvvələri tərəfindən günahsız mülki vətəndaşların dəfələrlə bombalanması və öldürülməsini kəskin şəkildə qınayırıq. Bu hücumlar nəticəsində günahsız mülki şəxslərin dağıntılarına, itkilərinə və əzablarına beynəlxalq cavab tələb edirik.

"Qarabağ" Futbol Klubu olaraq mənəvi, humanist dəyərlərimizə, insanlığın birliyinə və həyatın müqəddəsliyinə inamımıza bağlılığımıza sadiq qalırıq. Bu inam kökləri milli mədəniyyətimizdə, böyük filosofumuz İmaməddin Nəsiminin şeirlərində, komanda üzvlərimizin hər birinin ürəyində tapır".

## *Olimpizm*

### Olimpiada zamanı Antiinfeksiya Mərkəzi fəaliyyət göstərəcək

Gələn ilin yayında Tokioda keçiriləcək Olimpiya və Paralimpiya Oyunları zamanı Antiinfeksiya Mərkəzi fəaliyyət göstərəcək.

Bu barədə razılaşma Yaponiya hökumətinin, Tokio bələdiyyəsinin və Olimpiadanın Təşkilat Komitəsinin Baş nazirin ofisində keçirdiyi görüş zamanı əldə edilib. Görüşdə Olimpiada zamanı Təşkilat Komitəsinin nəzarəti altında fəaliyyət göstərəcək Antiinfeksiya Mərkəzinin yaradılması barədə qərar qəbul olunub. Rəsmi nümayəndələrin bildirdiyinə görə, Mərkəzin qarşısında yarışlarda iştirak etmək üçün Tokioya gələn idmançıların fiziki sağlamlığı barədə məlumatların toplanması vəzifəsi qoyulacaq. Mərkəz həmçinin koronavirusa yoluxma halları təsdiq edildiyi halda onun yayılması yollarının aşkar edilməsinə cavabdeh olacaq.

Bundan əlavə, görüş iştirakçıları yüksək temperaturu olan şəxslərin Atletlər şəhərciyində ambulator müalicəsi, xəstələrin daşınması və yerləşdirilməsi, özəl laboratoriyaların fəaliyyətinin təşkili ilə məşğul olacaq mərkəzi obyektin inşası barədə də razılığa gəliblər.

Eyni zamanda, Yaponiya hökumətinin Beynəlxalq Olimpiya Komitəsi və idman federasiyaları ilə Oyunlar zamanı koronavirusa yoluxduğu müəyyən edilən idmançılarla necə rəftar olunacağı məsələsini müzakirə edəcəyi də bildirilir.

### Təşkilatçılar könüllülərin hazırlığına başlayıblar

Tokio Yay Olimpiya Oyunlarının təşkilatçıları könüllülərin hazırlığına başlayıblar. Hazırlıqla bağlı proqram bu ilin fevralında koronavirus pandemiyası və olimpiadanın təxirə salınması səbəbindən dayandırılmışdı. Dekabradək 5 mindən çox Yaponiya vətəndaşı və əcnəbinin hazırlıq keçməsi planlaşdırılır.

Gələn ilin mart-may ayları arasında Təşkilat Komitəsi hər bir könüllünün ixtisaslaşmasını təyin edəcək. Mayda Olimpiya Oyunlarının könüllülərinə xüsusi forma veriləcək, bundan sonra hazırlığın son mərhələsi birbaşa idman obyektlərində başlayacaq.

Ümumilikdə, Tokio Oyunlarında 80 min könüllü iştirak edəcək.

### Tokioda Olimpiya məşəllərinin sərgisi açılıb

Yaponiyanın paytaxtı Tokioda keçiriləcək Olimpiya və Paralimpiya Oyunlarında məşəl estafeti zamanı istifadə ediləcək məşəllərin sərgisi açılıb.

Kyodo agentliyinin yaydığı xəbərdə bildirilir ki, sərgi noyabrın 2-də Tokio hökumətinin ofisində fəaliyyətə başlayıb. Noyabrın 10-dan sonra isə Tokiodan səyahətə çıxacaq məşəlin 8 ay ərzində ölkənin 62 əyalətini gəzəcəyi qeyd olunub.

Məşəl estafeti gələn il iyulun 3-də başa çatacaq.

Xatırladaq ki, Olimpiya məşəli cari ilin əvvəllərində Yunanıstanın Olimpiya kəndindən götürüləcək, Oyunların vaxtının dəyişdirilməsi barədə qərarın qəbulundan dörd gün əvvəl Yaponiyaya gətirilib. Həmin vaxtdan etibarən məşəl təşkilatçı ölkədə saxlanılır.

Olimpiya Oyunları gələn il iyulun 23-də, Paralimpiya Oyunları isə avqustun 24-də başlayacaq.

***"Müzəffər Ordumuz tək torpaqlarımızı deyil, həm də qürurumuzu özümüzə qaytardı"***

**Səh. 4**

Bərdə terroru erməni faşizminin iç üzünü bir daha nümayiş etdirdi

**Səh. 5**

***Zəngilan və Qubadlı idmançıları qələbə sevincini "Olimpiya dünyası" ilə bölüşür***

**Səh. 6**



# Qarabağ Azərbaycandır!

## Millimizin heyəti müəyyənləşib

Kiyevdə keçiriləcək bədii gimnastika üzrə 36-cı Avropa çempionatında iştirak edəcək Azərbaycan milli komandasının heyəti müəyyənləşib. Noyabrın 26-29-da keçiriləcək yarışda Azərbaycanı 11 idmançı təmsil edəcək.

Gənclər kateqoriyasında fərdi proqramda Nərmin Bayramova, Leyli Ağazadə, Alina Gözəlova və İlona Zeynalova iştirak edəcək. Böyüklər kateqoriyasında Azərbaycanı fərdi proqramda Zöhrə Ağamirova və Arzu Cəlilova, qrup hərəkətlərdə isə Ləman Əlimuradova, Zeynəb Hümmətova, Yelizaveta Luzan, Məryəm Səfərova və Darya Sorokina təmsil edəcək. Qeyd edək ki, bədii gimnastika üzrə Avropa çempionatında böyüklər arasında fərdi proqramda 27 gimnast, kiçiklər arasında isə 75 gimnast iştirak edəcək.



## Hakimimiz olimpiadada iştirak edəcək




Yaponiyanın paytaxtı Tokioda keçiriləcək Yay Olimpiya Oyunlarında karate yarışlarını idarə edəcək 15 hakimin adı açıqlanıb. Azərbaycanın beynəlxalq dərəcəli hakimi Cahangir Babayev də olimpiadada iştirak edəcək. Hakimlər Komissiyası tərəfindən tərtib olunan siyahıya daha 2 beynəlxalq referi ehtiyat hakim kimi əlavə ediləcək. Olimpiya Oyunları gələn il iyulun 23-də, Paralimpiya Oyunları isə avqustun 24-də başlayacaq.

## *Azərbaycanlı Olimpiya çempionu baş məşqçi təyin olundu*

Azərbaycanlı Olimpiya çempionu Valeri Belenki Almaniyada baş məşqçi təyin olunub. 1992-ci il Barselona Olimpiadasının qızıl medalçısı kişilərdən ibarət idman gimnastikası üzrə Almaniya millisində baş məşqçi kimi fəaliyyət göstərəcək.

Qeyd edək ki, 51 yaşlı məşqçi Bakıda doğulub, daha sonra Almaniyanın Ştutqart şəhərinə köçüb.

Onu da bildirək ki, Almaniya millisi dekabrın 9-13-də Türkiyənin Mersin şəhərində keçiriləcək kişi idman gimnastikası üzrə Avropa çempionatında iştirak etməyəcəyini açıqlayıb. Buna səbəb koronavirus səbəbindən idmançıların həyatlarını təhlükə altına atmamaq istəyidir.

## *Ronaldinyodan Azərbaycana dəstək*

Futbol üzrə Braziliya millisinin və İspaniyanın "Barselona" klubunun sabiq futbolçusu Ronaldinyo Azərbaycana dəstək olub.

Məşhur futbolçu azərbaycanlılara salam göndərərək deyib: "Qoy hər kəs salamat evlərinə qayıtsın. Azərbaycanda mən çox gözəl qarşılandım və tezliklə ora qayıtmaq istəyirəm".

## Olimpiadanın keçiriləcəyi bütün infrastruktur artıq hazırdır

2028-ci ildə Los-Ancelesdə keçiriləcək Yay Olimpiya Oyunları ilə bağlı Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Koordinasiya Komissiyasının ilk iclası baş tutub. Nikol Hovertsin sədrliyi ilə keçirilən iclasda ən yaxın planlar müzakirə edilib. İki gün davam edən onlayn konfransda Olimpiada-2028-in idman proqramına da diqqət yetirilib, infrastruktur və ticarət proqramları ilə bağlı məsələlərə toxunulub.

Dörd illiyin əsas yarışının keçiriləcəyi idman obyektlərinə xüsusilə diqqət yetirilib. Təşkilat Komitəsindən bildirilib ki, Olimpiadanın keçiriləcəyi bütün infrastruktur artıq hazırdır. Bu səbəbdən də vəsaitlər yeni azarkeşlərin cəlb edilməsinə və bütün iştirakçılar üçün ən rahat şəraitin yaradılmasına sərf ediləcək.

## Universiada-2023-ün idman qurğularında test yarışları keçiriləcək

Yekaterinburqda 2023-cü ildə keçiriləcək Ümumdünya Yay Universiadasının qurğularında test yarışları keçiriləcək. Bu barədə Universiada-2023-ün Təşkilat Komitəsindən bildirilib. Qeyd edilib ki, test yarışları 2022-ci ildən 2023-cü ilədək təşkil ediləcək. Universiadanın yarışlarının keçiriləcəyi obyektlər arasında 2020-ci ilin dekabrında Nikolay Karpol adına Voleybol Akademiyası, 2021-ci ildə futbol mərkəzi və sambo sarayı, 2022-2023-cü illər ərzində cüdo sarayı, eləcə də, Universiada-2023-ün Atletlər kəndi və digər bütün obyektlərin inşası başa çatdırılacaq.




Xatırladaq ki, XXXI Ümumdünya Yay Universiadası 2021-ci ildə Çinin Çendu şəhərində təşkil olunacaq. Ötən il İtaliyanın Neapol şəhərində keçirilən XXX Yay Universiadasında Azərbaycan milli komandası 2 qızıl, 3 gümüş və 2 bürünc medal qazanaraq komanda hesabında 18-ci yerdə qərarlaşıb.

## Azərbaycanın beynəlxalq dərəcəli hakimi vəfat edib

Azərbaycanın ağırlıqqaldırma idman növü üzrə beynəlxalq dərəcəli hakimi Qadir Babayev vəfat edib. Azərbaycan Ağır Atletika Federasiyasından (AAAF) verilən məlumata görə, 66 yaşlı mütəxəssis qəflətən dünyasını dəyişib.

Qeyd edək ki, Qadir Babayev SSRİ idman ustası, ağırlıqqaldırma üzrə dəfələrlə Azərbaycan çempionu, beynəlxalq turnirlərin mükafatçısı və qalibi olub. İdman sahəsində göstərdiyi nailiyyətlərə görə ona Azərbaycan Respublikasının "Fəxri Bədən Tərbiyəsi və İdman işçisi" və "Əməkdar məşqçi" adları verilib.

AAAF Hakimlər Kollegiyasının üzvü olmuş Qədir Babayev Azərbaycanda idmanın inkişaf etdirilməsində göstərdiyi xüsusi xidmətlərinə görə Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Olimpiya Komitəsinin Fəxri Fərmanı ilə təltif olunub.

Kişi boksçulardan ibarət Azərbaycan milli komandası Türkiyədə təlim-məşqləri davam etdirir.

Umberto Orta Dominqesin rəhbərlik etdiyi yığma Olimpiya təsnifat turnirləri üçün təlim-məşq toplanışını Kastamonuda keçirir.

Məşqçilər korpusu hazırlıq çərçivəsində 15 boksçunu yoxlayır. Noyabrın 16-da bitəcək toplanış Türkiyə və Rumıniya yığmaları ilə birgə təşkil olunur.

## "Yığmanın üzvləri və məşqçiləri olaraq, cəbhəyə getməyə hazırıq"



Təlim-məşq toplanışlarında iştirak edən boks üzrə Azərbaycan millisinin böyük məşqçisi Nəriman Abdullayev Dağlıq Qarabağ münaqişəsi barədə "Anadolu" agentliyinə açıqlama verib. Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini bildirən təcrübəli mütəxəssis Türkiyənin ölkəmizə göstərdiyi mənəvi dəstəyi xüsusi vurğulayıb: "Türkiyənin bizə dəstəyi çox böyükdür. Türk xalqına minnətdarıq. Türkiyəli qardaşlarımız bizə bu müddətdə böyük mənəvi dəstək verdilər. Biz də türkiyəli idmançıları sevirik, hamısı qardaşlarımızdır. Türkiyənin bizə əvvəldən mənəvi dəstəyi olub və indi də davam edir. Qarabağ bizimdir, Qarabağ Azərbaycanındır! Boksçularımız arasında daha əvvəl döyüşlərdə iştirak edən və şəhid olanlar da var. Yığmanın üzvləri və məşqçiləri olaraq cəbhəyə getməyə hazırıq". Nəriman Abdullayev Türkiyənin Kastamonu şəhərində təlim-məşq toplanışında olan yığmanın hazırlığını da dəyərləndirib. O, Tokio-2020 Yay Olimpiya Oyunları ilə bağlı hədəflərini də açıqlayıb: "Məşqlərimiz yüksək səviyyədə keçir. Türkiyəyə 15 idmançı ilə gəlmişik. Bu ilin fevralında da Kastamonuda toplanışda olmuşuq. İnşallah, Olimpiadadan medallarla qayıdacağıq. Hədəfimiz Avropa Olimpiya Təsnifat mərhələsində Tokio-2020-yə lisenziyalar qazanmaqdır".

Yığmamızın boksçusu Ruslan Rüstəmov isə açıqlamasında bütün diqqətlərinin Azərbaycan əsgərinin yanında olduğunu söyləyib: "Qarabağda müharibə gedir. Burada olsaq da, ürəyimiz əsgər qardaşlarımızla birlikdədir. Əsgərlərimiz döyüş meydanında vuruşur, biz də rinqdə mübarizə aparır, dünya arenalarında Azərbaycanın bayrağını yüksəklərə qaldırırıq. İlk hədəfim olimpiadaya vəsiqə qazanmaq və bayrağımızı yüksəklərdə dalğalandırmaqdır".

Qeyd edək ki, koronavirus pandemiyası səbəbindən təxirə salınan Tokio Yay Olimpiya Oyunları 2021-ci il 23 iyul - 8 avqustda keçiriləcək.

## Formula 1: Azərbaycan Qran-Prisi nə vaxt keçiriləcək?

Formula 1 komandalarının rəhbərləri Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Jan Todt ilə 2021-ci il mövsümünün təqvimini müzakirə etmək üçün Portimaoda görüşüblər. 6 saat davam edən görüşdə



bir sıra məsələlər, o cümlədən qənaət yolları, büdcə məhdudiyyətləri, yeni qaydalar, eləcə də növbəti mövsüm üçün təqvim müzakirə edilib. Layihə təqvimində 23 mərhələ yer alıb. Bununla belə, Formula 1 mövsümünün 2020-ci ildə olduğu kimi - qrafikə uyğun olaraq keçirilməsi baş tutmayacağı təqdirdə ehtiyat plan yoxdur.

Qeyd edək ki, ilk yarışın tarixi və yeri də artıq məlumdur. Belə ki, ilk yarış martın 21-də Melburnda baş tutacaq. Mövsümün Avropa hissəsi mayın 9-da Barselonadakı yarışla açılacaq. Bakıda keçiriləcək Azərbaycan Qran-Prisi isə bu yarışdan 4 həftə sonra baş tutacaq.



# Qarabağ Azərbaycandır!

***Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Qarabağda və işğal olunmuş digər ərazilərdə bütün infrasturukturlar ermənilər tərəfindən dağıdılmış, sözün əsl mənasında vəhşicəsinə yerlə-yeksan edilmişdir.***

***Dağıntıya məruz qalan sahələr arasında idman infrastrukturunu xüsusilə qeyd etmək olar. Bu və ya digər məsələlər barədə mütəxəssis fikri öyrənmək üçün "Olimpiya dünyası" qəzeti olaraq, Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları İctimai Birliyinin (AHİTA) sədri Nadir Əliyevlə görüşüb, söhbət etdik. Müsahibimiz bu mövzuda maraqlı faktları bizimlə bölüşdü. İşğal altında qalmış idman obyektləri və Qarabağ haqqında müsahibəni oxucularımıza təqdim edirik.***



## Nadir Əliyev:

## "Ən böyük stadion o dövrdə Xankəndində inşa edilmişdi"

***- Nadir müəllim, istərdik ki, söhbətimizə Dağlıq Qarabağın işğaldan əvvəlki idman həyatından başlayaq. Həmin ərazidə olan idman infrastrukturu, inkişaf edən idman növləri barəsində bir qədər məlumat verərdiniz.***

- Əvvəlcə onu qeyd edim ki, "Məhsul" Kənd Könüllü Kooperativ İdman Cəmiyyətinin işğal olunan rayonların hamısında Rayon Şuraları fəaliyyət göstərirdi. Xankəndidə isə vilayət şurası mövcud idi. Bundan əlavə Şuşa və digər rayonların nümayəndəliyi fəaliyyət göstərirdi. "Qarabağ" İdman Cəmiyyəti hazırda bizim tərkibimizdədir. Ümumiyyətlə, işğal olunan rayonların idman qrumunun sədrləri var və bizim idarə tərəfindən maliyyələşdirilir. İşğal olunan rayonların əksəriyyətində yunan-Roma güləşi, sərbəst güləş, futbol, sambo növləri daha çox kütləvi hal almış və populyarlıq qazanmışdı. Ağdamda böyük sambo məktəbi var idi. Təəssüf ki, müharibə illərində bəzi mütəxəssislərimiz vətən uğrunda döyüşlərdə iştirak etmiş və şəhidlik zirvəsinə yüksəlmişdilər. Buna misal olaraq Füzuli rayon şurasının sədri Polad Əliyevi xüsusi qeyd etmək istərdim. O, Xocavənddə bizim təlimatçımız olmuş, təcrübəli mütəxəssisimiz düşmənin snayper gülləsinə tuş gəlmişdi. Qubadlıda da bizim güclü məktəbimiz var idi. Yunan-Roma güləşi üzrə pəhləvanımız Bahadur Həziyev Qubadlı "Məhsul" İdman Cəmiyyətinin sədri vəzifəsində çalışırdı. O, çox güclü pəhləvan idi. Məlumat üçün qeyd edim ki, Ağdam şəhərində sambo və güləş məktəbindən əlavə böyük bir futbol komandası var idi. Demək olar ki, bugünki "Qarabağ" klubu həmin "Ağdam" klubunun varisidir. Mən özüm də futbolçu olmuşam. Həmin vaxtı Milli Qəhrəmanımız Allahverdi Bağırovla bir yerdə futbol oynamışıq. O, çox gözəl insan idi. Onu tanıyanlar bildirirdilər ki, Allahverdinin hələ kiçik yaşlarından idmana, xüsusən də futbola, atletika və voleybola böyük həvəsi olub. Məktəb illərində və sonrakı vaxtlarda idmanın müxtəlif növlərində keçirilən idman oyunlarında, xüsusən futbol yarışlarında fərqlənirdi. O, həm də Ağdamın "Qarabağ" futbol klubunun şərəfini qoruyub. 1970-ci ildə Füzulidə "Qızıl sünbül" kubokunda Ağdam-Cəbrayıl oyununda kapitan kimi iştirak edib. Allahverdi Bağırov qardaşı Eldar Bağırovla (müdafiəçi) birlikdə Ağdamın futbol komandasını şərəflə təmsil ediblər. O, 1976-cı ildə "Qarabağ" futbol klubunun baş məşqçisi təyin olunmuşdu. Hamının "Alı", - deyə müraciət etdiyi Allahverdi Bağırov 1991-ci ildə "Qarabağ" və "Neftçi" veteranları arasında keçirilən oyunda da iştirak etmişdi. Belə ki, 1:1 hesabı ilə başa çatan qarşılaşmada Ağdam klubunun qolunu 5 nömrəli oyunçu Allahverdi Bağırov vurmuşdu. Biz futbol oynadığımız dövrdə məşhur futbolçularımızdan olan Kamil Eynullayev bizim məşqçimiz idi. Azərbaycan çempionatında iştirak edirdik. İndi həmin stadionlar işğal altında vəhşiliyin qurbanı olub.

***- Bizdə olan məlumata görə, həmin ərazilərdə ən böyük stadion məhz Xankəndidə yerləşirdi.***

- Bəli, ən böyük stadion o dövrdə Xankəndində inşa edilmişdi. Ağdamda 1,5 hektar, Zəngilanda isə 1,2 hektar ərazini əhatə edən stadion var idisə, Xankəndidəki stadion 5 hektarı əhatə edirdi. Orada biri əsas olmaqla, 3 köməkçi stadion fəaliyyət göstərirdi. Xankəndidə 5 hektarlıq stadiondan əlavə, 2,5 hektar ərazini əhatə edən təlim-məşq üçün idman bazası da var idi. Həmin bazaların texniki pasportları bu gün də bizim idarədədir. Şuşada təkcə şahmat məktəbi yerləşirdi. Laçın rayonunda da kiçik şahmat məktəbi var idi. O dövrdə həmin ərazidə ermənilər idmanı sıxışdırırdılar, inkişafına mane olurdular.

***- Bu gün Ordumuz böyük şücaətlə döyüşür. Bu da onu göstərir ki, gənclərimizdə böyük ruh yüksəkliyi var. Sizcə, bu ruh yüksəkliyi nədən qaynaqlanır?***

- Xalqımızda həmişə döyüş məsələsində böyük ruh olub. Hər bir vətəndaşımız torpaqlarımızın düşməndən azad olunması uğrunda bir yumruq kimi birləşib, həmrəylik nümayiş etdirir. Təsəvvür edin ki, ikinci dünya müharibəsində bizim çox sayda qəhrəmanımız olub, 400 mindən çox Azərbaycan vətəndaşı bu müharibədə iştirak edib. Ümumiyyətlə, tarix göstərir ki, biz savaş zamanı birləşməyi, həmrəy olub, bir nöqtəyə vurmağı bacarmışıq. Xalqımızda böyük ruh olub. Hər kəs geriyə baxmadan, könüllü olaraq cəbhə bölgəsinə yollanıb. Qeyd edim ki, bu gün 40 nəfərdən çox əməkdaşımız və idmançımız cəbhə bölgəsindədir. Adlarını çəkmək istəmirəm, amma onların aralarında hətta dünya və Avropa çempionatlarının qalibləri də var. Bizim təcrübəli "Turist alpinist" klubumuz var. Onların təcrübəsi və səriştəsi orduda xidmət etməyə əsas verir. Təəssüf ki, cəbhəyə yollanan könüllülərimiz arasında şəhidimiz də var. Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm.

***- Fəaliyyətiniz dövründə Qarabağla əlaqəniz sıx olub. Həmin yerləri necə xatırlayırsınız?***

- Təbii ki, xatirələr çoxdur. Xatirələr dedikdə, Ağdamın futbol stadionu, Xankəndinin bizim balansımızda olan idman qurğuları, Şuşanın şahmat məktəbi yada düşür. Hətta həmin şahmat məktəbində tez-tez görüşlərimiz olurdu. Həmin dövrdə bir dəfə "Məhsul" İdman Cəmiyyətinin Qubadlı üzrə sədri Bahadur Həziyevin evində qonaq olmuşam. Onun bir "Qaz 21" volqa avtomobili var idi. O, 10-a yaxın uşağı həmin maşına yığaraq, digər rayonlarda keçirilən yarışlara aparardı. Çətinliklə də olsa çalışırdı ki, uşaq və yeniyetmələrin yarışlarda iştirakını təmin etsin. Bir sözlə, həmin dövrdə Bahadur Həziyev və onun kimi digər mütəxəssislərimizin uşaq və yeniyetmələrin inkişafında danılmaz rolu olub.

***- O dövrdə Azərbaycan idmançılarına həmin ərazilərdə birmənalı yanaşılmırdı. Əsasən, erməni idmançılarına üstünlük verilirdi. Bu barədə nə deyərdiniz?***

- O dövrdə Dağlıq Qarabağda əksər sahələrdə rəhbərlər həmişə milliyətcə erməni olub. Şuşada keçirilən yığıncaqlara, tədbirlərə gələn sədrlərin hamısı onları təmsil edirdi. Hətta "Məhsul"un Şuşa Rayon Şurasının adını çəkmək istəmədiyim milliyətcə erməni olan bir sədri var idi. O fiziki cəhətdən sağlam deyildi, heç idmana da aidiyyəti yox idi. Özü də fotoqraf işləyirdi. Amma həmin cəmiyyətə sədrlik edirdi. Sonralar bizim təkidimizlə həmin vəzifəyə əslən azərbaycanlı mütəxəssis, Bədən Tərbiyəsi İnstitutunu bitirmiş, basketbolçu Ceyhun İbrahimov gətirildi. Bu 1988-1989-cu illərdə olub. Yəni o, həmin ərazidə bu sahədə işləyən yeganə azərbaycanlı idi.

***- Ordumuz demək olar ki, hər gün yeni ərazilərimizi işğaldan azad edir. Ali Baş Komandanımız xalqımıza xoş xəbərlər verir. Tam və qəti qələbə çaldığımız gün uzaqda deyil. Xalqımız yumruq kimi birləşib həmrəylik göstərir.***

- Bəli, bu gün xalqımız həmrəy olub, Orduya öz dəstəyini nümayiş etdirir. Təəssüf ki, danışıqlar prosesində əksər dövlətlər düşmənlərimizə köməklik etməyə çalışırlar. Amma torpaqlarımızın 30 il düşmən tapdağı altında qalması onu göstərdi ki, xalq birləşməlidir. Başda cənab Ali Baş Komandanımız olmaqla, bu tarixi məsələni xalq özü həll etməlidir. Bunun başqa yolu yoxdur. Hamı gördü ki, əhəmiyyətsiz danışıqlar heç bir fayda vermədi. Məhz buna görə də, müharibə qaçılmaz idi. Bu gün qüdrətli Ordumuz var. Məhz Ali Baş Komandanın və şanlı Ordumuzun sayəsində əzəli torpaqlarımızı yenidən özümüzə qayıdır.

***- İşğaldan azad olunmuş bölgələrlə bağlı nə planlarınız var?***

- Qeyd etdiyim ki, işğal altında olan ərazilərdəki idman infrastrukturunun pasportları bizdədir. Bir neçə gün bundan əvvəl Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyev həmin sənədləri məndən istədi. Təbii ki, bunun üçün yenidən vəsait ayrılmalıdır, həmin infrastrukturlar bərpa olunmalıdır. "Qarabağ" İdman Cəmiyyəti Dağlıq Qarabağa getməlidir, digər rayonların sədrləri isə öz yerlərinə qayıtmalıdırlar. Bu həm də həmin mütəxəssislərin də böyük arzusudur ki, doğma torpaqlarına qayıdaraq idman ənənələrini yenidən bərpa etsinlər. Bir sözlə, əsas fikrimiz və məqsədimiz bundan ibarətdir. Hər birimiz istəyirik ki, torpaqlarımız tezliklə azad edilsin və vətəndaşlarımız öz doğma yurduna geri qayıtsın.

*Anar Əhmədov,*
*Azər Əlizadə*

***"Məhsul"Kənd Könüllü Həmkarlar Kooperativ İdman Cəmiyyətinin tabeliyində olan işğal edilmiş ərazilərdəki idman qurğularından bəzilərinin siyahısı:***

### Ağdam şəhər stadionu

**İstifadəyə verildiyi tarix:** 1951-ci il
**Balans qiyməti:** 40 min rubl
**Ərazisi:** 1,5 hektar (uzunluğu 110 m, eni 70 m)
**Tamaşaçı tutumu:** 5 min (təbii ot örtüklü)
**Əlavə göstəriciləri:** 1 soyunub-geyinmə otağı (60 m2), 1 tribuna (25 sıra, 5 min oturacaq). Mişar daşı ilə əhatə olunmuş stadionda futbol və voleybol meydançası, qaçış cığırı və atletika idman növü üçün yer mövcud idi.

### Qubadlı qəsəbə stadionu

**İstifadəyə verildiyi tarix:** 1974-cü il
**Balans qiyməti:** 6902 manat
**Ərazisi:** 2,5 hektar (uzunluğu 180 m, eni 140 m)
**Tamaşaçı tutumu:** 4 min (təbii ot örtüklü)
**Əlavə göstəriciləri:** 2 soyunub-geyinmə otağı (32 m2), 1 məşqçilər otağı (15 m2), 1 xidməti otaq (15 m2), 1 tribuna (8 sıra, 1600 oturacaq). Mişar daşı ilə əhatə olunmuş divar, 5 otaqlı bina və dəmir darvazalı stadionda futbol, voleybol, həndbol və atletika yarışları keçirmək mümkün idi.

### Kəlbəcər şəhər stadionu

**İstifadəyə verildiyi tarix:**1982-ci il.
**Balans qiyməti:** 146,455 rubl.
**Ərazisi:** 2,2 hektar.
**Əlavə göstəriciləri:** 1 futbol stadionu (uzunluğu 90 m, eni 54 m), 4 qaçış cığırı (uzunluğu 400 m, eni 6m) , 2 tribuna (14 sıra, 3 min oturacaq), 1 eyvan (2 sıra, 30 oturacaq), 1 soyunub-geyinmə otağı (43,96 m2), 1 tibbi kabinet (43,96), 1 radio mərkəzi (29,15), 1 kassa (12,3). Mişar daşı ilə əhatə olunmuş stadionda futbol və atletika idman növləri üzrə yarışlar təşkil olunurdu.

### Laçın şahmat klubu

**İstifadəyə verildiyi tarix:** 1981-ci il
**Ərazisi:** 0,02 hektar (uzunluğu 14,5 m, eni 5 m, hündürlüyü 4 metr). Bir mərtəbən ibarət olan binada eyni vaxtda 60 nəfər şahmatla məşğul olurdu. Taxta döşəməli klubda 1 xidməti otaq da mövcud idi.

### Xankəndi şəhər stadionu

**İstifadəyə verildiyi tarix:** 1968-ci il.
**Balans qiyməti:** 3811,50 rubl.
**Ərazisi:** 4,5 hektar.
**Tamaşaçı tutumu:** 5 min nəfər
**Əlavə göstəriciləri:** 1 futbol meydançası (uzunluğu 104 m,eni 69 m), qaçış cığırı-5/4, (uzunluğu-100/400,eni-6,25/5,0), 2 uzununa tullanmaq üçün meydança (standart), 1 hündürlüyə tullanmaq üçün meydança (standart), 2 nizə və nüvəitələmə üçün sektor (standart), 1 voleybol meydançası (uzunluğu 30 m, eni 15 m), 2 basketbol meydançası (uzunluğu 40, eni 28 m), 2 soyunub-geyinmə otağı (50 m2), foye (20 m2), məşqçi otağı (14 m2), radio mərkəzi (14 m2), massaj otağı (10 m2), hamam (80 m2), anbar (20 m2).

### Xankəndi (DQMV) təlim-idman bazası

1 futbol meydançası (uzunluğu 105 m, eni 55 m), voleybol meydançası (uzunluğu 30 m, eni 15 m), basketbol meydançası (uzunluğu 35 m, eni 20 m), tennis kortu (uzunluğu 40 m, eni 20 m), 2 soyunub-geyinmə otağı (40 m2), foye (12 m2), xidməti otaq (16 m2), məşqçi otağı (16 m2), tibb kabineti (24 m2), anbar (24 m2), yataqxana (20 otaq, 80 nəfərlik iki mərtəbə, 450 m2).

### Şuşa idman zalı

**Balans qiyməti:** 21,735 rubl
1 güləş idman zalı (uzunluğu 10 m , eni 8 m, hündürlüyü - 4 m, 1 mərtəbə, 30 nəfərlik), 1 şahmat-dama klubu (uzunluğu 14 m, eni 8 m, hündürlüyü 4 m, 1 mərtəbə, 40 nəfərlik), 1 soyunub-geyinmə otağı (8 m2)



# Qarabağ Azərbaycandır!

## "Müzəffər Ordumuz tək torpaqlarımızı deyil, həm də qürurumuzu özümüzə qaytardı"

***Hazırda müzəffər Ordumuz illərdən bəri düşmən tapdağı altında qalan torpaqları qarış-qarış işğaldan azad edir. Tarixi yurd yerlərimiz mənfur düşməndən təmizlənir. Bu qəhrəman zabitlərimizin və əsgərlərimizin vətənə olan məhəbbətindən, sevgisindən irəli gəlir. Ali Baş Komandanın rəhbərliyi ilə Ordumuzun rəşadəti artıq bütün dünyanın diqqətini özünə cəlb edib. Əslində Azərbaycan əsgəri öz torpaqları uğrunda döyüşərək, düşmənin ərazilərimizi zəbt edən mənfur ordusunu darmadağın edir. Son buraxılışlarını Vətən müharibəsinə həsr edən "Olimpiya dünyası" qəzeti bu dəfə də oxucularına yüksək ixtisaslı peşəkar hərbçilərin fikirlərini təqdim edir. Müsahibimiz Azərbaycanın Rusiyadakı səfirliyinin keçmiş hərbi attaşesi, ehtiyatda olan polkovnik Rac Babayevdir. Qarabağ savaşının iştirakçısı olan zabitimizlə söhbətimiz zamanı bir sıra maraqlı məqamlara aydınlıq gətirdik.***



***- Cənab polkovnik, Vətən müharibəsi barəsində söhbətimizə hansı fikirlərlə başlayardınız?***

- İllərdən bəri düşmən tərəfindən işğal olunan torpaqlarımız bu gün şanlı Ordumuz tərəfindən azad olunur. Qəhrəman Azərbaycan əsgəri böyük şücaət göstərərək, ərazilərimizi düşməndən təmizləyir. Biz bu anları yaşamaq üçün xeyli vaxt gözlədik. Amma bir gun də olsa, unutmadıq ki, bizim torpaqlarımız düşmən tapdağındadır. Bu yerdə bir misal çəkmək istəyirəm. Ruslar 1905-ci ildə Yaponiya ilə döyüşdə məğlubiyyətə uğramışdı. 1945-ci ildə Sovet Ordusu Yaponiyanı məğlub edəndə Stalin demişdi ki, biz bu məğlubiyyətin əvəzini cıxmaq üçün 40 il gözləməli olduq. Necə deyərlər, nəsil dəyişsə də, insanların intiqam hissi üreyində bu müddət ərzində məhv olmamışdı. Hesab edirəm ki, bununla nə demək istədiyim məlumdur. Biz yaxşı bilirik ki, o torpaqlar bizim tarixi yurd yerimizdir. Onu düşməndən azad edib, gələcək nəsillərə əmanət etməliyik.

***- Vətən müharibəsində iştirak edən əsgərlərimiz böyük qəhrəmanlıqlar göstərirlər. Bilirik ki, sizin oğlunuz da Qarabağda düşmənə qarşı döyüşür.***

- Bəli, onlar əsl qəhrəmandırlar. Düzdür mənim oğlum Murad da onlarla birlikdə döyüşür. Amma bu barədə ətraflı danışmaq istəmirəm. O da hər bir Azərbaycan əsgəri kimi döyüş tapşırıqlarını yerinə yetirir. Amma ürəyimin dərinliyində kök atmış bir hadisəni yada salmaq istəyirəm.

1993-cü il oktyabrın 10-da birinci Qarabağ döyüşündə bizim taborumuz Safarşa kəndini müdafiə edirdi. Lakin həmin ərazini cəmi 13 gün qoruya bildik və geri çəkildik. Həmin tarixdən 27 il keçir. 2020-ci il oktyabrın 10-da oğlum Muradın da iştirak etdiyi döyüşdə şanlı ordumuzun əsgərləri həmin əraziləri, Cəbrayıl rayonunu və digər yaşayış məntəqələrini düşməndən azad etdilər. İnanın ki, həm hərbçi kimi, həm də bir ata kimi çox qürurluyam. Müzəffər Ordumuz tək torpaqlarımızı deyil, həm də qürurumuzu özümüzə qaytardı.

***- Zaman dəyişdiyi kimi, müharibə qaydaları da dəyişir. İndi zabitlərin təlimatla deyil, təşəbbüslə döyüşməsinə necə baxırsınız?***

- Biz Sovet Ordusunun zabitləri təlimata uyğun olaraq döyüşürdük. Lakin indiki, zabitlər döyüşlərdə təşəbbüs göstərirlər. Adətən zabitlər qaydalardan kənara çıxmaqdan qorxurlar. Lakin indi döyüşlər imkan verir ki, verdiyin qərarda israrlı olasan. Mən hər zaman nümunə və misal çəkərək danışıram. Verdiyiniz sualdan sonra yenə tarixə nəzər salmaq istərdim. XIX əsrin sonlarına qədər müharibələrdə ordu sərkərdələrin şəxsi keyfiyyətləri döyüşün müqəddəratını həll edirdi. Sərkərdə necədirsə, ordu da ona bənzəyəcək. Belə ki, Birinci Dünya müharibəsinə qədər döyüşən tərəflər özləri üçün Milli sənət doktorinası yaratdılar. Həmin vaxt birgə görüşlər təşkil edərək, yeni döyüş taktikasını müəyyənləşdirirdilər. İkinci dünya müharibəsində yalnız almanlar bu dəyişiklikləri hiss edirdilər. Sovet ordusu Alman ordusundan təxminən 4 il sonra formalaşmağa başlamışdı. Düzdür Sovet ordusunda silahlar daha mükəmməl idi. 1941-ci ilin zabit heyəti ümidləri doğrultmadı. Onlardan sonra gələn yeni zabitlər artıq 1943-cü ildə özlərini döyüş meydanında sübut etdilər.

***- Düşmənə ağır zərbələr vuran Ordumuz hərb tarixinin şanlı səhifəsini yazır. Siz necə düşünürsünüz?***

- Bu gün Ordumuz son nəsil ordu silahları ilə düşmənə zərbə vurur. Bu cür silahlar çox az ordularda var. Biz həmin silahları əsl döyüşlərdə öyrənirik.Vətən müharibəsində yeni hərbi metodologiya yaranır. Müharibə başa çatdıqdan sonra gələcəyin müharibəsi haqqında yeni dərsliklər yazılacaq. Qarabağın azad olunması buna nümunə göstəriləcək. Bu gün dünyanın aparıcı ölkələri bu müharibəni hər bir xırdalıqlarına qədər izləyir. Onlar etiraf edirlər ki, Azərbaycan Qarabağda müasir taktika ilə müharibə aparır. Pilotsuz döyüş aparatlarından istifadə etməklə dağlıq ərazilərdə döyüşlər çətin olsa da, ordumuz mövcud şəraitdən məharətlə istifadə edir. 90-cı illərdə bundan söhbət gedə bilməzdi. Həmin vaxt Ordunun başqa taktikası var idi. Həmin taktika ilə qalib gəlmək olardı. Amma mümkün olmadı. O dövrün nəsili də vətən üçün canını vermək iqtidarında idi. Fəqət bu və ya digər səbəblərdən biz həmin torpaqları əldən verdik.

***- Əlbəttə müasir silahlar əsas şərtlərdən biridir. Bəs milli-mənəvi hissləri necə xarakterizə edərdiniz?***

- Xalqın və millətin hisslərini bir sözlə ifadə etmək olmaz. İllərdən bəri insanlarda olan vətənə məhəbbət hissi bu gün ən yüksək həddə çatıb, desək yanılmarıq. Əsgərlərimiz döyüşdən və müharibədən qətiyyən qorxmurlar. Hətta düşmənlərimiz də bunu hiss ediblər. Mən ehtiyatda olan polkovnikəm. Bir hərbçi kimi deyə bilərəm ki, bizim 90-cı illərdə çiyinlərimizə düşən yük, bu gün azalır. Bu, şanlı Ordumuzun sayəsində baş verir. Tezliklə bütün dünya bizim qələbəmizin şahidi olacaq.

***- Əsgərin döyüş əzmini onun fiziki və mənəvi tərbiyəsi təşkil edir. Bu doğrudanmı belədir?***

- Əlbəttə. Bu güc və hiss olmadan müasir döyüş silahları olsa da belə heç bir əsgər döyüşlərdə ürəklə iştirak edə bilməz. Hətta ruh yüksəkliyi və əzmi olan əsgər zəif silah və komandirlə uğur qazana bilər.

Silaha olan etibar amilini də unutmaq olmaz. Bizim əsgər buna inanır. Televiziyada izləyirik, erməni əsgəri zirehli texnikanı atıb, qaçır. Halbuki həmin texnikanın milyonlarla qiyməti var. Erməni əsgəri bilir ki, onun döyüş meydanında mühafizəsi təmin olunmur. Tank döyüşə çıxanda onu piyadalar qoruyur. Qarşı tərəfini artilleriya təmizləyir. Eyni zamanda onu havadan ya pilotsuz uçuş aparatı, ya da aviasiya qorumalıdır. Belə olduğu təqdirdə tank öz döyüş tapşırığını təyinatı üzrə yerinə yetirə bilər.

***- Ermənilər dinc əhalini hədəf seçir. Şəhər və kəndlərimizə raket atır. Bu vəhşiliyin son həddi deyilmi?***

- Ümumiyyətlə, ermənilərdə döyüş taktikası yoxdur. Onların yeganə və dəyişməyən taktikası namərdlikdi. Mən bunu 1993-də Cəbrayılda olanda da hiss etdim. Onlar hər bir vəziyyətdən yararlanmaqla, mənfur xislətlərindən əl çəkmirlər. Mülki əraziləri və insanları nişan almaqla daha da nifrət qazanırlar. Bunu görən Ordumuz onlara qarşı daha amansız olur. Qələbə qazandıqdan sonra da biz onların mənəviyyatsız olduqlarını heç vaxt unutmamalıyıq. Tarixdən ibrət dərsi götürməliyik.

***- Vətən Müharibəsi tezliklə bizim qələbəmizlə başa çatacaq. Şübhə yoxdur ki, bu böyük qələbəmizdən sonra çox şey dəyişəcək. Maraqlıdır sizcə bizim qələbəmizdən sonra düşmənlərimiz hansı nəticəni çıxarmalıdırlar?***

- Çox nikbinəm. Hesab edirəm ki, daha gözəl günlər qarşıdadır. Bu müharibə hər iki tərəfin gələcək müqəddəratını və taleyini müəyyənləşdirəcək. Ermənilər anlamalıdır ki, Qarabağ Azərbaycandır! Hələ ki, gec deyil. Düşmən məğlubiyyətini başa düşməlidir. Onlar bilməlidir ki, özgə torpağına göz tikənin gözünü ovurlar.

***Aslan Şirəliyev,***
***Anar Əhmədov***

---

Çexiyanın paytaxtı Praqada təşkil olunacaq cüdo üzrə Avropa çempionatında iştirak edəcək Azərbaycan millisinin heyəti açıqlanıb. Yığmamız yarışda 16 cüdoçu ilə təmsil olunacaq. Yarışda qüvvəsini sınayacaq kişilər arasında yığmamızın



## Avropa çempionatında 16 cüdoçumuz iştirak edəcək

heyətində Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov (73 kq), Hidayət Heydərov (81 kq), Məmmədəli Mehdiyev (90 kq) və Elmar Qasımov (100 kq) və digər aparıcı cüdoçular da yer alıblar.

Qadınların yarışında isə Leyla Əliyeva, Aişə Qurbanlı (hər ikisi 48 kq), Gültac Məmmədəliyeva (52 kq), Aleksandra-Larisa Florian, İçınkorloo Müntxsedev (hər ikisi 57 kq), Günel Həsənli (70 kq) və İrina Kindzerska (+78 kq) güclərini sınayacaqlar.

Qeyd edək ki, Avropa çempionatı noyabrın 19-dan 21-dək keçiriləcək.

---

## Qran-Prinin mərhələ yarışında üçüncü yer

Şahmat üzrə "Titled Tuesday Blitz" Qran-Prisinin mərhələ yarışında Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov üçüncü yeri tutub.



Ş.Məmmədyarov İsveçrə üsulu ilə keçirilən turnirin 11 turundan 9,5 toplayıb.

Qeyd edək ki, onunla eyni xalı yığan rusiyalı Sergey Karyakin və FIDE-nin bayrağı altında çıxış edən Əlirza Firuzca əlavə göstəricilərə görə, birinci və ikinci yerləri tutublar.

---

## 2 şahmatçımız FİDE reytinqində "ilk 10-luq"da yer alıb

Beynəlxalq Şahmat Federasiyası (FIDE) yeni reytinq siyahısını açıqlayıb. Tərtib olunan siyahıda ilk "10-luq"da Azərbaycanın 2 təmsilçisi yer alıb. Qrossmeysterimiz Şəhriyar Məmmədyarov 1 pillə geriləyərək 8-ci sırada qərarlaşıb. Onun aktivində 2770 xal var. 2765 xalı olan Dünya Kubokunun qalibi Teymur Rəcəbov isə 10-cu yerdəki mövqeyini qoruyub. Nicat Abbasov 3 pillə irəliləyərək, 72-ci sıraya yüksəlib. Qədir Hüseynov isə 2 pillə geriləyərək 75-ci sıraya enib. Aktivində 2654 xalı olan Rauf Məmmədov isə 2 pillə geriləyərək 95-ci sırada qərarlaşıb. Siyahıya yenə norveçli dünya çempionu Maqnus Karlsen 2862 xalla başçılıq edir. ABŞ təmsilçisi Fabiano Karuana 2823 xalla 2-ci, çinli Dinq Liren 2791 xalla 3-cüdür.

Qadınlardan 2443 xalı olan Günay Məmmədzadə 28-ci sıradan 31-ci mövqeyə geriləyib. 2382 xala malik Gülnar Məmmədova 7 pillə geriləyərək 80-ci sırada yer alıb. 2376 xalı olan Xanım Balacayeva da eyni sayda gerilmə ilə 89-cu yerə enib.



# Qarabağ Azərbaycandır!

## Bərdə terroru erməni faşizminin iç üzünü bir daha nümayiş etdirdi

Ötən həftə Bərdə şəhəri erməni terrorunun mərkəzinə çevrildi. Gəncədən sonra Bərdədə törədilən və mülki əhalinin məhvinə yönəlmiş qətliam zamanı mülki obyektlər, fərdi və çoxmənzilli yaşayış binaları raket atəşinə tutuldu. Düşmənin Bərdənin Qarayusifli kəndində və şəhərin mərkəzində törətdiyi terror aktları zamanı ümumilikdə, 25 nəfər dinc sakin həyatını itirdi, 80-dən çox insan isə yaralandı. Gəncə terrorunda olduğu kimi, bu dəfə də qurbanlar arasında azyaşlılar var idi. Belə ki, uşaq qatillərinin cinayətləri nəticəsində 2013-cü il təvəllüdlü Aysu İsgəndərova qətlə yetirildi. Onun 3 yaşlı bacısı Tahirə İsgəndərova isə xəsarət alaraq, xəstəxanaya yerləşdirildi. Bununla da sentyabrın 27-dən bu günədək









Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində həlak olmuş uşaqların sayı 11-ə çatdı. 7 yaşlı Aysunun terror nəticəsində həyatla erkən vidalaşması, onun atasının və yaxınlarının çiynində son mənzilə yola salınması isə hər kəsi kədərə bürüdü. Axı o, bu həyatda hələ nə qədər yaşamışdı, neçə mənzil dəyişmişdi ki, bu da onun son mənzili oldu. Oktyabrın 28-də sərhəd tanımayan erməni vəhşiliyinin digər qurbanı isə 25 yaşlı Tükəzban Mirzəliyeva oldu. 5 il həsrətlə övlad yolu gözləyən Tükəzban xanım sadəcə 22 gün analıq duyğularını yaşadı. Sevinci yarımçıq qalan, övladını doyunca görə və qoxlaya bilməyən ana, terror qurbanı kimi bu dünyadan köçdü. Ondan yadigar qalan körpə Kəmalə İsmayılova isə anasının üzünü xatırlamadan ona həsrət qaldı. Tərtərdə cəbhə xəttində olan və bu üzücü xəbəri eşidərək, dərhal evlərinə qayıdan Tükəzbanın həyat yoldaşı Elçin İsmayılovun dediyi “uzun müddətdir uşağımız olmurdu, çox sevinmişdik, 5 ildir bu anı gözləyirdik. İndi qızımız yetim böyüyəcək”, - sözləri isə həyatın ən ağrılı tərəfidir.

“Olimpiya dünyası” qəzeti olaraq, bu dəfə də erməni silahlı qüvvələrinin mülki insanlara qarşı törətdiyi vandalizmi diqqətdə saxlamağa çalışırıq. Budəfəki sayımızda Bərdədə baş verən terror aktına xüsusi yer ayırmışıq. Bunun üçün Bərdə rayonunun rəsmi şəxsləri ilə əlaqə saxlayıb, hadisələrin təfərrüatları ilə bağlı məlumat öyəndik.

### “Bərdə bu gün həm ön, həm də arxa cəbhədə düşmənə layiqli müqavimət göstərir”

***Vidadi İsayev (Bərdə Rayon İcra Hakimiyyətinin başçısı):***

- Bu, Bərdədə baş verən birinci terror hadisəsi deyil. Bu hadisədən bir gün əvvəl ermənilər Bərdə rayonunun Qarayusifli kəndini “Smerç” tipli reaktiv raketlərdən atəşə tutmuşdu. Həmin terror hadisəsində 5 nəfər dinc sakin dünyasını dəyişdi. Oktyabrın 28-də baş verən hadisənin miqyası isə daha böyük oldu. Şəhərdə 5 nöqtəyə raket atıldı. Burada əsasən, ictimai nəqliyyatın daha sıx olduğu yerlər atəşə tutulmuşdu. Bu hadisə nəticəsində 20 nəfər dünyasını dəyişdi, 76 nəfər isə yaralandı. Dünyasını dəyişən və yaralananlar arasında azyaşlılar da var. Təbii ki, düşməndən humanizmlik gözləmək olmaz. Burada hərbi obyekt yoxdur. Amma erməni terrorçuları ən çox dağıdıcı gücə malik olan silahlardan istifadə edərək, dinc əhalini hədəf alır. Bu günə qədər Bərdə rayonunda 65-dən yuxarı obyektə, dövlət müəssisəsinə və fərdi evlərə ziyan dəyib. Ermənilərin terror hadisəsi törətməkdə əsas məqsədi dinc əhalini qorxutmaqdır. Onlar arxa cəbhədə panika yaratmaqla, çalışırlar ki, sakinlərimiz evlərini tərk etsinlər. Amma təbii ki, ermənilər bu çirkin əməlləri ilə məqsədlərinə nail olmadılar. Bərdə bu gün həm ön, həm də arxa cəbhədə düşmənə layiqli müqavimət göstərir. Bərdəlilər illərdir ermənilərin bu təcavüzünə vərdiş ediblər, onların xarakterini bilirlər. Əsas məsələ odur ki, sakinlərimiz düşməni çox yaxşı tanıyır. Onlar bilirlər ki, düşmənlərimiz Ordumuzla cəbhədə bacarmır və bunun da qisasını dinc əhalidən almağa çalışırlar. Terror aktı törətmək ermənilərin xarakterində formalaşıb. Onlar artıq neçənci dəfədir ki, humanitar atəşkəs rejimini kobud şəkildə pozurlar. Bərdədə baş verənlər bir soyqırımdır. Amma sakinlərimiz bundan nəinki, sarsıldılar, əksinə, Ali Baş Komandanımız cənab İlham Əliyevin və Ordumuzun ətrafında sıx birləşiblər. Bu gün Ordumuza böyük inam var. Sakinlərimiz hərbçilərimizin qəhrəmanlığı, şücaəti ilə nəfəs alırlar. Hər gün yeni qələbə xəbərlərini eşidirik. Əsas odur ki, xalqımız Ordu ilə vətənpərvərlik nümunəsi göstərib, birlik nümayiş etdirir. Azərbaycanın uğurlu günləri hələ qarşıdadır. Üç rəngli bayrağımızın Şuşada, Laçında, Xankəndində, Kəlbəcərdə dalğalanacağı günə az qalıb. Biz qələbə ümidi ilə yaşayırıq və hər birimiz arxa cəbhədə bir əsgərik. İnanıram ki, tezliklə Ordumuz əzəli torpaqlarımızın hər bir qarışını düşməndən azad edəcək.

### “Terror hadisələri zamanı idman sahəsi də erməni təcavüzündən zərər çəkdi”

***Hikmət Ələkbərli (Bərdə rayon Gənclər və İdman İdarəsinin rəisi):***

- Oktyabrın 28-də Bərdədə baş verən terror hadisəsi nəticəsində üç inzibati dövlət binası daxil olmaqla, mərkəzi xəstəxananın 100 metrliyinə və yaşayış məntəqələrinin ətrafına raket atıldı. Hadisə nəticəsində 20 nəfər dünyasını dəyişdi, 70-dən çox insan isə müxtəlif bədən xəsarətləri aldı. Yaralılar arasında ən kiçiyinin 7, ən böyüyünün isə 78 yaşı var. Qeyd edim ki, bu hadisədən bir gün əvvəl Qarayusifli kəndində düşmən terroru nəticəsində dünyasını dəyişənlər arasında 7 yaşlı Aysu İsgəndərova da var idi. İki gün ərzində terror hadisələri nəticəsində ümumilikdə, 25 nəfər dünyasını dəyişdi, 80-dən çox insan yaralandı. Görünür, düşmənin ən şərəfsiz ilə döyüşmək qismətimizə düşüb.



Bərdə cəbhə xəttindən 70 kilometr uzaqda yerləşsə də, ermənilər hərbi cinayət törədərək şəhərin mərkəzini, xüsusilə də dinc sakinləri hədəf alır. Günahsız insanlar bir anın içində qətlə yetirildilər. Bu hadisələr sakinlərimizdə dərin psixoloji izlər buraxsa da, bir vətəndaş kimi bacardığımız qədər onların yanında olmağa, öz dəstəyimizi göstərməyə çalışırıq.



Terror hadisələri zamanı idman sahəsi də erməni təcavüzündən zərər çəkdi. Belə ki, oktyabrın 28-də baş verən terror nəticəsində dünyasını dəyişənlər arasında Bərdə şəhər Tofiq İsmayılov adına 1 saylı orta məktəbin fiziki tərbiyə müəllimi Fuad İsmayılov da var. Bundan əlavə hadisə nəticəsində Bərdə Olimpiya İdman Kompleksinə də ciddi zərər dəyib. Bildiyiniz kimi, yüksək səviyyəli müxtəlif yarışların keçirilməsi üçün nəzərdə tutulan, beynəlxalq standartlara cavab verən Bərdə Olimpiya İdman Kompleksi ölkəmizdə fəaliyyət göstərən ilk komplekslərdən biridir. 2003-cü ildə inşa edilən bu kompleksin xidmətlərindən il ərzində maksimum dərəcədə yararlanırdıq. İstənilən halda, kompleksə dəyən zərər Bərdədə idman sahəsinə də ağır təsir etmiş oldu. Biz idman ictimaiyyətinin nümayəndələri kimi, baş verən bu hadisələri şiddətlə qınayır, düşmənin layiqli cavabını alacağına inanırıq.

### “Bərdə Olimpiya İdman Kompleksinin hər iki binasının infrastrukturu sıradan çıxıb”

***Qabil Məmmədov (Bərdə Olimpiya İdman Kompleksinin direktoru):***

- Bildiyiniz kimi düşmənin silahlı birləşmələri Bərdə şəhərinə beynəlxalq hüquqla qadağan olunmuş kasetli bombalarından istifadə edərək zərbələr endirdi. Zərbənin təsiri nəticəsində şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə, həmçinin rəhbərlik etdiyim Bərdə Olimpiya İdman Kompleksinə də ciddi ziyan dəyib. 3,8 hektar ərazini əhatə edən Bərdə Olimpiya İdman Kompleksinin hər iki binasının infrastrukturu sıradan çıxıb. Düzdür, hadisə zamanı kompleksin ərazisində olan şəxslər arasında xəsarət alan olmasa da, partlayış nəticəsində binanın tavanı, plastik pəncərələr, qapılar, eləcə də üzgüçülük hovuzu tamamilə yararsız hala düşüb. Aidiyatı qurumların əməkdaşları hadisə ilə bağlı araşdırmalar aparıblar. Mənfur düşmən



xalqımıza qarşı törətdiyi bu hərbi cinayət əməlləri ilə atəşkəs rejimini növbəti dəfə kobud şəkildə pozmuş oldu. Onlar yenə də atəşkəs rejiminə əməl etməməklə, öz xislətini nümayiş etdirdi, qadağan edilmiş silahları dinc əhaliyə qarşı çevirdi. Bu artıq erməni terrorçularının növbəti vəhşiliyidir. Təəssüf ki, beynəlxalq qurumlar bu hadisələrə hələ də səssiz qalırlar. Bu hadisələrin qisasını müzəffər Ordumuz tezliklə cəbhə bölgəsində alır və alacaqdır.

*Azər Əlizadə*



# Qarabağ Azərbaycandır!

# Zəngilan və Qubadlı idmançıları qələbə sevincini “Olimpiya dünyası” ilə bölüşür

***Son günlər cəbhədən gələn şad xəbərlər və yeni zəfərlər hər birimizi sevindirir. Əzəli torpaqlarımızı düşmən tapdağından hissə-hissə azad edən şanlı Ordumuz yeni tarix yazır. Demək olar ki, hər gün bir neçə yeni kənd və şəhərlərimizin erməni işğalçılarından azad olunması xəbərini alırıq. Son günlər isə Zəngilan və Qubadlı rayonlarının, eyni zamanda kəndlərinin işğaldan azad olunması elə bu torpağın yetirmələri olan idmançıların da sevincinə səbəb oldu. Qəzetimizin bu sayında Zəngilan və Qubadlı idmançılarının doğma torpaqlarının işğaldan azad olunması ilə bağlı sevinc hisslərini oxucularımıza təqdim edirik. İdmançılar 27 illik həsrətdən sonra yenidən öz doğma torpaqlarına ayaq basacağı günü səbrsizliklə gözlədiklərini bildiriblər.***

## “Bizim kənddə də çəkiliş olarsa, həmin əraziləri görüb, tanıya bilərəm”

*Niyaməddin Paşayev (Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti):*

- Bu gün müzəffər Ordumuz tərəfindən işğal altında olan torpaqlarımız hissə-hissə düşməndən azad edilir. Onlardan biri də mənim doğulduğum, 13 yaşıma qədər yaşadığım Qubadlı rayonunun Muğanlı kəndidir. Kəndimizin azad olunması xəbərini eşidəndə keçirdiyim sevinc hisslərini heç bir sözlə ifadə edə bilmirəm. Həqiqətən, heç nə hiss etmirdim. Hətta sevincimdən bu xoş xəbərin təsiri altına düşdüm və bir müddət özümə gələ bilmədim. Biz 27 il idi ki, bu həsrətlə yaşayırdıq, qələbə xəbərini gözləyirdik. Bu müddət ərzində dövlətimiz torpaqlarımızın azad olunması üçün əlindən gələni edirdi. İllərdir sürən danışıqlar prosesində düşmən razılığa gəlmədi. Lakin bu gün bizim güclü Ordumuz var. Şanlı Ordumuzun uğurlu əks-hücum əməliyyatı nəticəsində, əzəli torpaqlarımızın bir hissəsi düşməndən azad edildi. Mən torpaqlarımızın bütövlüyü uğrunda canından keçən bütün şəhidlərimizə Allahdan rəhmət diləyir, yaralıların isə tezliklə şəfa tapmasını arzulayıram. Arzu edirəm ki, düşmən tapdağı altında olan digər rayonlarımızın da tezliklə işğaldan azad olunması ilə bağlı xoş xəbərlərini eşidək.



Müdafiə Nazirliyi işğaldan azad olunan Qubadlı şəhərinin görüntülərini paylaşmışdı. Həmin görüntülərə baxanda, doğma el-obanı görəndə insan özünü qürurlu hiss edir. Düşünürəm ki, bizim kənddə də çəkiliş olarsa, həmin əraziləri görüb, tanıya bilərəm. Düzdür, Qubadlı işğal olunanda mənim 13 yaşım var idi. İndi ola bilsin ki, oralar çox dəyişib. Amma insan yenə də öz doğulduğu, yaşadığı doğma torpaqları xatırlayır, tanıyır. Çox istəyərdim ki, yaxın günlərdə həmin torpaqlara gedim, illərdir çəkdiyimiz həsrətə son qoyum. Ən böyük arzum, Qubadlıya, doğma Muğanlı kəndinə gedib, Həkəri çayında dəstəmaz alıb, doğulduğum torpaqda namaz qılmaqdır. Doğma kəndimə qayıdandan ilk olaraq, bunu edəcəyəm. Bundan başqa torpaqlarımız işğaldan azad olandan sonra Azərbaycanın ən gözəl guşəsi olan Şuşanı da gedib görmək istəyirəm.

## “Qubadlını görməsəm də, valideynlərim hər zaman oranın gözəlliyi barədə danışardı”

*İslam Abbasov (İkinci Avropa Oyunlarının gümüş mükafatçısı):*

- Zəngilan rayonunun işğaldan azad olunmasından sonra tezliklə Qubadlını da geri alacağımıza böyük inamımız var idi. Çünki bu rayonlar bir-birinə yaxındır. Qubadlı rayonunun və bir sıra kəndlərinin işğaldan azad olunması xəbərini alan kimi, dərhal ailəmə xəbər etdim. Təbii ki, Qubadlıdan olan bir sakin kimi biz də bu xəbərə çox sevindik. Atam birinci Qarabağ müharibəsində iştirak edib. O, Qubadlı rayon polis şöbəsində çalışıb. Ona görə də Qubadlının azad olunması atam üçün xüsusi oldu. İşğal altında olan digər rayonlarımızın da tezliklə azad olunacağı günü səbrsizliklə gözləyirik. Düzdür, yaşım az olduğu üçün Qubadlını görməsəm də, valideynlərim hər zaman oranın təbiəti və gözəlliyi barədə danışardı. Elə buna görə də o, xatirələri dinləyəndə özümü sanki Qubadlıda hiss edirdim. Biz Qubadlının Gürcülü kəndindənik. Şəhərin mərkəzindən bizim kəndimizə qədər olan məsafə 18 kilometrdir. Valideynlərimin dediklərinə görə bizim rayonumuzda çox gözəl turizm abidələr var. İndi həmin abidələrin qalıb, qalmamasını dəqiq bilmirəm. Amma Qubadlıya ayaq basanda ilk olaraq həmin yerlərə gedəcəyəm.



## “Bu hissləri sözlə izah etmək mümkün deyil”

*Elçin İsmayılov (Cüdo üzrə böyüklər arasında üç qat Avropa çempionu, gənclərdən ibarət milli komandamızın baş məşqçisi):*

- Karyeram ərzində bir sıra Avropa çempionatlarının qalibi, eyni zamanda dünya çempionatının mükafatçısı olmuşam. Bir sözlə,



idmançı kimi kifayət qədər sevincli günlərim olub. Lakin yarışlarda qalib gələndə heç bu qədər sevinməmişdim. Bu çox qürurverici hissdir. Həqiqətən də bu hissləri sözlə izah etmək mümkün deyil. Tamam fərqli hisslərdir. Düzdür, mən özüm Bakı şəhərində anadan olmuşam. Lakin əslimiz Zəngilandandır. Yadıma gəlir ki, uşaq vaxtı hər yay tətilində Zəngilanın Məmmədbəyli və Babaylı kəndlərinə gedir, orada istirahət edirdik. Bu günlərdə cənab Ali Baş Komandanımız Zəngilan rayonunun Babaylı kəndinin də işğaldan azad olunduğunu açıqladı. Bizə bəxş etdiyi bu sevincli anlara görə dövlətimizə və Azərbaycanın şanlı Ordusuna minnətdarlığımı bildirirəm. Arzu edirəm ki, düşmən tapdağı altında olan digər torpaqlarımız da tezliklə işğaldan azad edilsin. Mən bu sevincli günləri yaşamağı digər işğal olunmuş rayonlarımızın saklinlərinə də arzu edirəm. Bilirəm ki, hər birimiz kimi, onların da ürəyi cəbhədən gələn son xəbərlərlə döyünür. Tezliklə onlar da öz torpaqlarının işğaldan azad olunması xəbərinə sevinsinlər. Bu gün uzaqda deyil. Biz Ali Baş Komandanımıza və qüdrətli Ordumuza inanırıq. İnşallah qələbə bizimlə olacaq.

## “Bu sevincin yerini heç nə verə bilməz”

*Asiman Qurbanlı (II Avropa Oyunlarının qalibi):*



- Mən Zəngilan rayonunun Mincivan qəsəbəsində anadan olmuşam. Bir yaşımda isə oradan məcburi köçkün düşmüşük. Düzdür, həmin günləri xatırlamıram. Amma valideynlərim hər zaman Zəngilandan danışır, oranın təbiətindən, gözəlliyindən bəhs edirdilər. Bu günlərdə cənab Ali Baş Komandanımız işğaldan azad olunmuş yeni şəhər və kəndlərimizin adlarını açıqladı. Doğulduğum Zəngilan rayonunun Mincivan qəsəbəsinin də işğaldan azad olunduğu xəbərini eşidəndə isə özümdən asılı olmadan gözlərim doldu, kövrəldim. Qeyd etdiyim kimi, Zəngilandan 1 yaşımda gəlməyimə baxmayaraq, bu xəbər məni çox sevindirdi. Bu, hər birimizin sevincidir. Mən bu 27 il ərzində valideynlərimin necə Vətən həsrəti çəkdiyini görürdüm. Hətta evimizin şəkillərinə baxdıqca və valideynlərimin danışdığı xatirələri dinlədikcə özümü bir anlıq orada təsəvvür edirdim. İndi səbrsizliklə həmin ərazilərə getmək və ailəmin yaşadığı xatirələri onlarla bərabər yaşamaq istəyirəm. Bu tamam fərqli sevinc hissləridir. İdmançı kimi çox uğurlarım olsa da, bu sevincin yerini heç verə bilməz. Hər zaman idmançı kimi çalışmışam ki, öz uğurlarımla o torpağın adını uca tutum. Bildiyiniz kimi, Zəngilandan çox güclü idmançılar çıxıb. Bundan sonra da istəyirəm ki, həmin ərazilərdə doğulub, boya-başa çatan gənclər Zəngilanın adını hər zaman uca tutsunlar. İnanıram ki, torpaqlarımızın hər bir qarışı tezliklə düşməndən azad ediləcək. Allah torpaqlarımızın bütövlüyü uğrunda şəhid olan hərbçilərimizə rəhmət eləsin, yaralı əsgərlərimizə isə şəfa versin.

## “Bu hissləri bizə yaşatdığı üçün şanlı Ordumuza təşəkkürümü bildirirəm”

*Zeynəb Məmmədyarova (Gənclər arasında dünya və Avropa çempionu, beynəlxalq qrossmeyster):*

- Biz Sumqayıt şəhərində yaşasaq da il ərzində bir neçə dəfə Zəngilana gedirdik. Xüsusilə də, yay tətilini orada keçirirdik. Zəngilana son səfərimizdə isə şahmat oynamağı öyrənmişdik. Zəngilan işğal olunanda mənim 10 yaşım var idi. Biz hələ uşaq idik, inanmırdıq ki, uzun bir müddət Zəngilansız qalarıq. Bu gün bütün zəngilanlılar kimi çox sevincliyəm. Bizim doğma kəndimiz olan Genlik də düşməndən azad olundu. Düşünürəm ki, indi Zəngilan bizə daha fərqli gələcək. Çünki illərdir doğma torpaqlarımızdan kənarda olmuşuq. Mən bu hissləri bizə yaşatdığı üçün Ali Baş Komandanımıza, şanlı Ordumuza, igid və mərd əsgərlərimizə təşəkkürümü bildirirəm. Şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Bu gün Ali Baş Komandanımız XXI əsrin ən güclü sərkərdələrindən biridir və biz bunun qalibiyyətini yaşayırıq. İnanırıq ki, düşmən tapdağı altında olan bütün əzəli torpaqlarımız tezliklə işğaldan azad ediləcək. Belə uğurlu taktika ilə Ordumuz yalnız zəfər çalmağa layiqdir. Tam qələbə inşallah, Azərbaycan əsgərinin olacaq.



## “Doğma kəndlərimizin işğaldan azad olunması xəbərini eşidəndə, sevincdən göz yaşlarımı saxlaya bilmədim”

*Siyavuş Bayramov (Karate üzrə Avropa və dünya çempionu, “Zəngilan Araz” İdman klubunun direktoru):*



- Mən Zəngilan rayonunun Sobu kəndində anadan olmuşam. 17 yaşım olarkən Zəngilan rayonundan məcburi köçkün kimi Bakı şəhərinə gəlmişik. Biz hər il oktyabr ayının 29-nu Zəngilanın işğal günü kimi yad edirdik. Amma bu il həmin tarixi Zəngilanın azad olunduğu gün kimi qeyd etdik. Bu hər bir məcburi köçkün ailəsi üçün çox sevinclidir. Doğma kəndlərimizin işğaldan azad olunmaq xəbərini eşidəndə sevincdən göz yaşlarımı saxlaya bilmədim. Bu hisslər sözlə ifadə olunmayacaq qədər gözəldir. İnanıram ki, yaxın zamanda doğulduğum Sobu kəndi də işğaldan azad olunacaq. Hər bir məcburi köçkün ailəsi illərdir ki, həsrətlə öz torpaqlarına qayıdacağı günü gözləyir. Artıq Azərbaycanın torpaqları müzəffər Ordumuz tərəfindən hissə-hissə işğaldan azad edilir. İnanıram ki, bayrağımız tezliklə Şuşada, Laçında, Xankəndidə, Kəlbəcərdə və digər işğal olunmuş ərazilərimizdə dalğalanacaq.

Qeyd edim ki, “Xətai” İdman Mərkəzində fəaliyyət göstərən “Zəngilan Araz” idman klubunun 7 idmançısı cəbhə bölgəsindədir. Onlar da hərbçilərimizlə birgə düşmənə qarşı döyüşürlər. Onların arasında şəhid olan idmançı da var. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Şəhidlərimizin valideynlərinin qarşısında baş əyirəm ki, belə mərd, qəhrəman övladlar böyüdüblər.

*Hazırladı:*
*Azər Əlizadə,*
*Türkay Niftəliyeva*





### AFFA-nın müraciətindən sonra erməni futbolçuya xəbərdarlıq edildi

Slovakiya Futbol İttifaqı “Jilina” klubunun üzvü Vahan Bıçakçıyana xəbərdarlıq edib. Buna səbəb 21 yaşlı yarımmüdafiəçinin Slovakiya Super Liqasında DAK-la matçda təxribata yol verməsidir.

V.Bıçakçıyan qol vurduqdan sonra oyun geyiminin altındakı futbolkanın üzərində yazılmış Ermənistan əsgərlərinə dəstək şüarını (ingilis və erməni dillərində) nümayiş etdirib.

Məsələ ilə bağlı AFFA tərəfindən SFZ-yə məktub ünvanlanıb, mövcud qaydalara əsasən futbol matçları zamanı hər hansı siyasi şüarların səsləndirilməsinin və ya nümayişinin qadağan olunduğu qeyd edilib.

Assosiasiyanın müraciətinə cavab verilib. Məktubda qeyd olunub ki, AFFA-nın müraciətinə uyğun olaraq, məsələyə İntizam Komitəsi tərəfindən baxılıb və Vahan Bıçakçıyana yol verdiyi hərəkətə görə intizam sanksiyası tətbiq edilərək xəbərdarlıq olunub.

Xatırladaq ki, UEFA-nın əməkdaşı Monika Mxitaryan da bir müddət əvvəl sosial şəbəkədə tarixi Azərbaycan torpaqları ilə bağlı həqiqətə uyğun olmayan paylaşımlar etdiyi üçün AFFA Avropa futbol təşkilatına müraciət edib, UEFA-nın məsələni araşdırmağa başlamasından sonra M.Mxitaryan həmin paylaşımları sosial şəbəkələrdən silib.

### “Qarabağ” turu uğurla başa vurdu

Futbol üzrə Azərbaycan Premyer Liqasında II dövrəyə start verilib. VIII turun ilk oyun günündə iki matç keçirilib. Autsayderlər qrupunda yer alan “Qəbələ” ilə “Sabah” əyalət klubunun meydanında üz-üzə gəlib. Gərgin keçən matçda meydan sahibləri qələbə qazanıblar. Yusif Nəbiyev və Nikolas Rayselin qolları sayəsində rəqibini üstələyən “Qəbələ” cari mövsüm ilk qələbəsini qazanıb. Turun digər qarşılaşması Bakıda paytaxt təmsilçiləri arasında oynanılıb. Autsayderlər qrupunun digər üzvü “Səbail” səfərdə, Zirə”nin qonağı olub. Rəşad Sadıqovun yetirmələri matçın aşkar favoriti sayılsa da, oyunda hesab açılmayıb. Qolsuz bərabərliklə rəqibindən 1 xal almağa müvəffəq olan “Səbail” son pilləddəki “Sabah”la xal fərqini aradan qaldırıb və hətta turnir cədvəlində onu geridə qoyub.

Turun ikinci oyun günündə də iki qarşılaşma keçirilib. Günə Sumqayıtda start verilib. Çempionatın liderləri “Sumqayıt”la “Neftçi” “Kapital Bank Arena”da üz-üzə gəlib. Qarşılaşmada qolsuz heç-heçə qeydə alınıb. Baxmayaraq ki, meydan sahibləri görüşün sonlarında penaltidən fərqlənmək imkanı qazanıb. Lakin Elvin Məmmədov bu imkandan yararlana bilməyib.

Turun sonuncu oyununda ötən mövsümün mükafatçıları qarşılaşıblar. Son çempion “Qarabağ” “Keşlə”ni sınağa çəkib. “Azərsun Arena”da keçirilən qarşılaşma Ağdam təmsilçisinin 6:1 hesablı qələbəsi ilə başa çatıb. 4-cü dəqiqədə Filip Ozobiç, 12-ci dəqiqədə isə Bədavi Hüseynov fərqlənib. 26-cı dəqiqədə “Keşlə”nin heyətində Vüsal İsgəndərli fərqi azaldıb. Daha sonra 38-ci dəqiqədə Ovusu Kvabena, 60-cı dəqiqədə Filip Ozobiç, 65-ci və 89-cu dəqiqədə isə Mahir Emreli qələbədə pay sahibi olub.

Bir oyun az keçirən və xalların sayını 12-ə çatdıran “Qarabağ” üçüncü pilləyə yüksəlib. Turnir cədvəlinə isə 8 turdan sonra 15 xal toplayan “Sumqayıt” başçılıq edir. Liderdən 1 xal az toplayan “Neftçi” isə ikinci pillədə yer alıb.

# Qarabağ Azərbaycandır!

## “Qarabağda yaşadığım hissləri heç cür unutmuram”



*Dilqəm Quliyev,*
*pedaqogika üzrə elmlər doktoru,*
*professor*

***Vətən torpağı bizim səcdəgahımızdır, müqəddəs and yerimizdir. Əsl vətəndaş odur ki, vətənini ürəyi, canı və qanı kimi sevsin, onun hər qarış torpağı üçün özünü fəda etsin. Canını azadlıq uğrunda qurban verən qəhrəmanlar Azərbaycan xalqının yaddaşında əbədi iz qoyub gedirlər. Biz onlara borcluyuq, biz belə oğullar yetişdirən vətənimizə borcluyuq.***

Hazırda Azərbaycan Ordusu yeni bir tarix yazır. 30 ilə yaxındır ki, işğal altında olan torpaqlarımızın bu günlərdə hissə-hissə azad olunması xəbərləri bir-birini əvəz edir. Ali Baş Komandan, cənab İlham Əliyevin uğurlu siyasəti və ordumuzun şücaəti sayəsində illərdən bəri yağı tapdağı altında qalan doğma yurdumuz azadlığa qovuşur. İllərdir torpaqlarımızın azad olunacağı günü səbrsizliklə gözləyirdik. Bu gün həmin vaxt gəlib çatıb. Azərbaycanın güclü-qüvvətli ordusunun göstərdiyi şücaət bunu deməyə əsas verir. Ali Baş Komandanımız cənab İlham Əliyev hər zaman olduğu kimi, əsgərlərimizin və xalqımızın yanındadır və onlara qələbə inamı verir.

### “Qonaq, kəlmeyi-şəhadətini bilirsən?”

Tale elə gətirdi ki, Qarabağ hadisələri ilə əlaqədar 1989-cu ilin mart ayında Şuşaya, Bərdəyə, Ağdama, Kərkicahana, Malıbəyliyə və Xankəndiyə getməli oldum. Ermənilərin açıq-aşkar təcavüzü nəticəsində Qarabağda minlərlə günahsız insan doğma yurd yerindən didərgin düşdü.



1989-cu ilin martın 7-də Qarabağda işləmək üçün 25 tələbədən ibarət könüllü dəstə yaradıb, Şuşaya yola düşdük. Mən 15 il tələbə inşaat dəstəsinin rəhbəri və zona komandiri olmuşdum. Qarabağda yaşadığım hissləri heç cür unutmuram. Həmin anları xatırlayanda kövrəlirəm. Biz Şuşaya birbaşa gedə bilmədiyimiz üçün təyyarə ilə Ağdama yollandıq. Sonra sərnişin avtobusu ilə (Ağdam-Şuşa) Şuşaya yola düşdük. Bizim sərnişin avtobusunu Xocalıda rus əsgərləri saxladılar. Bildiyiniz kimi, həmin dövrdə insanlar məlum Sumqayıt hadisələrinin acılarını yaşayırdılar. Respublikada komendant saatı tətbiq olunduğuna görə qeydiyyatı olmayanları Qarabağdan çıxarırdılar. O dövrdə bizimlə bərabər respublikanın 17 ali təhsil müəssisəsinin nümayəndələri də bura gəlmişdilər. Ölkənin ali təhsil ocaqlarının tələbə inşaat dəstələrinin komandirləri Ermənistandan qovulan məcburi köçkünlərə könüllü olaraq kömək etmək üçün komitədən razılıq almışdılar. İşə başlamaq üçün ilk növbədə müvafiq təşkilatlarla müqavilə bağlanmalı idi. Komendantın əmrinə əsasən, qeydiyyatı olmayan nümayəndələrin hamısını geriyə, Bakıya qaytardılar. Əlimdə icazə, yəni ezamiyyə vərəqi olduğundan mənə toxunmadılar. Mən iş müqaviləsi bağlamaq üçün Şuşada fəaliyyət göstərən tikinti təşkilatları ilə danışıqlar apardım. Onlarla işləmək istədiyimi desəm də, məni qəbul etmədilər. Onu da deyim ki, komendant saatı olduğuna görə, Kərkicahan, Malıbəyli kəndlərinə giriş və çıxış qadağan olunmuşdu. Bakıdan göndərilən ərzağı həmin kəndin sakinləri Şuşadan gəlib aparırdılar.

Heç yadımdan çıxmaz, tikinti təşkilatının yanında bir neçə adam göy otun üstünə uzanmışdı. Danışıqlarından başa düşdüm ki, həmin adamlar Kərkicahan və Malıbəyli kəndinin sakinləridir, Şuşaya ona görə gəliblər ki, bir iş tapıb işləsinlər. Belə çətin şəraitdə ailələrini dolandırmaq üçün yollara düşən bu insanların aqibəti məni çox narahat etdi.

Həmin vaxt Qarabağda vəziyyət çox gərgin idi. Mən də düşünürdüm ki, imkanım çatdığı qədər millətimə, xalqıma kömək edim, ehtiyacı olan insanlara yardım əlimi uzadım.

İndiki kimi xatırlayıram. 1989-cu il martın 10-u idi. Məni Çaykənddən qatarla geri göndərmək istəyirdilər. Orada Kərkicahan kəndinin sakini, tikintidə işləyən Rafiq adında bir oğlanla tanış olmuşdum. Rafiq mənim qatarla getməyimə razı deyildi. İstəyirdi ki, məni maşınla aparsın. Amma bir problem var idi: onun sürücülük sənədində ikinci şəkil vurulmadığına görə bizi mütləq saxlayacaqdılar. Nə isə biz qatarla getməli olduq. Çaykəndə gedən yolda bir maşın yolumuzu kəsdi. Sürücü bizə dedi ki, qabağa getməyin, sizi vuracaqlar. Rafiq mənə dedi ki, qonaq, kəlmeyi-şəhadətini bilirsən? Dedim ki, necə bəyəm? Məlum oldu ki, ermənilər bizdən qabaqda gedən maşını (maşında bütöv bir ailə - Bərdədən gələn ata, ana və oğlu olub) yandırıblar. Ermənilər bütün yolları bağlamışdılar. Rafiq yolu tanıyırdı deyə, Xankəndiyə Topxanadan girməli olduq. Şəhərin girəcəyində bir tank və iki rus hərbçisi dayanmışdı. Sənədləri yoxladıqdan sonra bizi buraxdılar. Xankəndinə girəndə Rafiq maşının işıqlarını söndürdü. Soruşanda ki, niyə belə edirsən, bəs yolu necə görəcəksən, o dedi: “Mən bu yolları gözüyumulu tanıyıram. Bilirsiniz, bu mənfurlar maşının nömrəsini görsələr, bizi maşınla birlikdə yandıracaqlar. Qardaş, beşmərtəbəli binaların altında zirzəmiləri görürsən? Divarda hər 5 metrdən bir 1 kubik çıxardılıb. Bunu gecələr bizi vurmaq üçün ediblər. Hətta axşam saat 8-dən sonra kimin evində işıq yanırsa, ermənilər o evin altını üstünə çevirirlər. Bax görürsən, o yanan evlər azərbaycanlılarındır”.

Axşam saat 11:00-da Kərkicahanda olduq. Kərkicahan Xankəndinin arxasındakı dağın yamacında yerləşir. Təsəvvür edin, kəndin girəcəyində axarlı-baxarlı bir göl vardı və həmin gölün kənarında ancaq dövlət qulluğunda olan erməni ailələri yaşayırdılar. Kənddə işıq yox idi. Biz dağı qalxaraq kəndə çatanda, kənd sakinləri qorxa-qorxa maşının səsinə yola çıxmışdılar. Rafiqgilin evlərinə yaxınlaşanda kənd sakinləri həyəcanla pıçıldaşır və biri-birinə deyirdilər: “Rafiq gəldi, bəs deyirdilər, öldürüblər”. Təsəvvür edin ki, sürücü komendant saatı tətbiq olunduğuna görə evinə, ailəsinin yanına gələ bilmirdi.

### “Yolda Azərbaycan dilində yazılan bir küçə adına belə rast gəlmədik”

Kərkicahan dözülməz şəraitdə yaşayırdı. Kənd sakinləri qorxu, təşviş içində idilər. Aclıq hökm sürürdü.



Kişilərin əksəriyyəti evi dolandırmaq üçün qazanc dalınca müxtəlif yerlərə işləməyə getmişdilər. Rafiqin həyat yoldaşı utana-utana bizə yavan çörək gətirdi. Soruşdum ki, ərzağınız varmı, uşaqlara nə verirsiniz yeməyə? Evin xanımı Xuraman Abbasovanın kənd sakinlərinə payladığı undan bir az qaldığını dedi. Bizə gətirdiyi çörək həmin undan idi. Mən qəhərimi boğmaq üçün başımı aşağı saldım. O çörək bizim boğazımızdan keçərdi? Məni qəhər boğurdu. Özümü güclə saxlayırdım.

Kənd sakinləri ermənilərin qəfil hücumundan qorunmaq üçün növbə ilə keşik çəkməli olurdular. Həmin gecə Rafiqin növbəsi idi. Mən onunla birgə gedəcəyimi bildirdim. Rafiq “Mən qonağı ölümə apara bilmərəm”, - dedi. Gecə saat dörddə biz yola düşdük. Kənddən çıxanda gördük ki, gölün yanında iki avtobus dayanıb. Bu Şuşa və Ağdam marşrutları ilə işləyən avtobuslar idi. Karantin vaxtı artıq başa çatmışdı. Biz yolboyu təxminən 32 postdan keçdik. Qəribədir ki, yolda Azərbaycan dilində yazılan bir küçə adına belə rast gəlmədik. Ermənilər küçə adları yazılan lövhələri güllə ilə deşik-deşik etmişdilər. Nəhayət, biz Bərdəyə çatdıq. Mən xilaskarıma, Rafiqə minnətdarlıq edərək ondan ayrıldım. Amma təəssüf ki, bu xeyirxah insanın sonrakı taleyindən xəbərim olmadı.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbə inşaat dəstəsi Bərdədə idi və mənim qayıtmağımı gözləyirdi. Mən qayıdandan sonra biz müqavilə əsasında işləməyə başladıq. Tələbələr erməni qəsbkarları tərəfindən öz doğma yurd-yuvasından didərgin düşmüş və Bərdə rayonunda məskunlaşmış əhaliyə kömək edirdi. Qeyd edim ki, “Vətən” tələbə inşaat dəstəsinin üzvləri mart-may aylarında 30 min manatlıq iş görmüşdülər. Tələbələrin hesabına toplanan vəsait hamısı Ermənistandan qovularaq Bərdədə məskunlaşmış məcburi köçkünlər üçün köçürüldü.



# Dünya-i idmanı

## Hamiltondan növbəti qələbə

İtaliyanın İmola şəhərində Formula 1 üzrə Emiliyi-Romanyi Qran-prisi keçirilib. Yarışın qalibi adını "Mercedes"in pilotu Luis Hamilton qazanıb. İkinci yeri onun komanda yoldaşı Valtteri Bottas tutub. "Renault" komandasını təmsil edən Daniel Rikkardo isə üçüncü pillə ilə kifayətlənib. Ümumilikdə 20 pilotdan 15-i finişə çata bilib.

Bu nəticədən sonra "Mercedes" sona 4 mərhələ qalmış 479 xalla Konstruktorlar Kubokunun qalibi adını qazanıb. İkinci yerdə 226 xalla "Red Bull" qərarlaşıb. "Renault" isə 135 xalla üçüncüdür.




Pilotların mübarizəsində isə Luis Hamilton 282 xalla 1-ci, Valtteri Bottas 197 xalla 2-cidir. 3-cü pillədə isə 162 xalla "Red Bull" pilotu Maks Ferstappen qərarlaşıb.

## olimpnews.az - sizin saytınız




## Keçmiş dünya çempionu yaddaşını itirdi

İngiltərə millisinin sabiq futbolçusu Bobbi Çarltona demensiya diaqnozu qoyulub. Bu barədə "The Telegraph" nəşrinə açıqlamasında veteran yarımmüdafiəçinin həyat yoldaşı Norma Çarlton deyib. O, ərinin yaddaşını itirdiyini bildirib. "Mançester Yunayted" rəsmi saytı vasitəsilə 83 yaşlı keçmiş oyunçusuna dəstək verib.

Qeyd edək ki, 1966-cı ildə İngiltərə millisinin heyətində dünya çempionu olmuş Bobbi Çarlton ölkənin ən yaxşı futbolçularından biri hesab olunur. Əfsanəvi oyunçu həmin il "Qızıl top" mükafatına layiq görülüb. O, dünyanın ən yaxşı hücumameyyli yarımmüdafiəçisi adına da namizəd göstərilib.



**Şaquli:**

3. 2020-ci ildə Olimpiya Oyunlarına ev sahibliyi edəcək şəhər
4. İdman gimnastikasında növ
7. Cərimə zərbəsi
9. Fransada şəhər
12. Bütün dünya çempionatlarında iştirak edən yeganə yığma komanda
13. İngiltərədə peşəkar liqa təmsilçisi
14. İdmanın və idmançıların düşməni
15. Komanda idman növlərində sərbəst mövqe
17. Formula yarışların bolidlərin düzülüşü
18. Olimpiya idman növü
19. "Ehramlar" ölkəsi
20. Solaxay tennisçi
23. Veteran futbolçumuz
24. "Atletiko" və "Real" bu şəhəri təmsil edir
25. "Çelsi"dən "Roma"ya transfer olunan futbolçu

**Üfüqi:**

1. Vatikanda futbol klubu
2. Avstriya bundesliqasının təmsilçisi
5. Erik Lamelanın çıxış etdiyi komanda
6. Şimali Amerikanı əhatə edən futbol təşkilatı
8. Hollandiyada klub və şəhər
10. Dörd ildən bir keçirilən böyük idman tədbiri
11. Argentina millisi belə adlanır
16. "Selta Viqo"nun futbolçusu
21. Bu klub "Cüzeppe Miatsa"da oynayır
22. Millimizin legioneri
26. "Roma"nın kapitanı
27. Fransa əsilli, əlcəzairli baş məşqçi
28. İkiçarxlı minik vasitəsi

## "Böyük beşliy"in ən bahalı gənc futbolçuları

Ən bahalı gənc futbolçuların siyahısı açıqlanıb. CİES futbol observatoriyası "Böyük beşlik" liqalarında çıxış edən və 2000-ci illərdə anadan olan futbolçuların transfer dəyərləri ilə bağlı araşdırma aparıb. Araşdırmaya görə "Bavariya"nın futbolçusu Alfonso Devis ən bahalı oyunçu olub. Kanadalı müdafiəçinin dəyəri 180,4 milyon avro təşkil edir.

Dortmund "Borussiya"sının üzvləri - ingiltərəli Ceydon Sanço (125,6) ikinci, norveçli Erlinq Haland (120,3) dördüncüdür.

Adıçəkilənlərlə müqayisədə iki yaş kiçik olan Ansu Fati siyahıda üçüncüdür. "Barselona"nın ispaniyalı vunderkindinin qiyməti 122,7 milyondur.



Daha iki futbolçunun qiyməti 100 milyonu keçib. Bunlar "Mançester Yunayted"də oynayan Meyson Qrinvud (115,3) və "Mançester Siti"nin üzvü Ferran Torresdir (106,0).

## "Qorxulu" zərbə rəqibi nakauta salıb

Qarışıq üslub döyüşçüsü amerikalı Peris Artis "Cage Fury Fighting Championship" (CFFC) turnirində rəqibi Rayan Riskonu nakautla məğlub edib. P.Artis döyüşün birinci mərhələsində rəqibinin başına ayaqla endirdiyi zərbə nəticəsində onu nakauta salıb. MMA Junkie portalında bu zərbəni "qorxulu" adlandırıblar. Amerikalı döyüşçü ardıcıl olaraq dördüncü qələbəsini qazanıb.



Qeyd edək ki, idmançının karyerası ərzinə məğlubiyyəti qeydə alınmayıb.

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19